**“Depozit lotereyası” adlı tirajlı stimullaşdırıcı lotereyasının şərtləri**

**1.Ümumi məlumat**

**1.1 Lotereya təşkilatçısının adı:** “Kapital Bank” ASC

**1.2 Stimullaşdırıcı lotereya təşkilatçısının VÖEN-i**: 9900003611

**1.3 Stimullaşdırıcı lotereya təşkilatçısının hüquqi ünvanı:** AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Füzuli küçəsi 71, tel.: +99412 598 12 95;

**1.4 Stimullaşdırıcı lotereya təşkilatçısının müvafiq fəaliyyət növünün adı:** Bank

**1.5 Lisenziyanın qeydiyyat nömrəsi:** 244 saylı

**1.6 Verilmə tarixi:** 05 noyabr 2018-ci il

**1.7 Qüvvədə olma müddəti:** müddətsiz

**1.8 Təqdim edən orqanın adı:** Azərbaycan Respublikasının Mərkəzi Bankı

**1.9 Stimullaşdırıcı lotereyanın adı:** “Depozit lotereyası”

**1.10 Stimullaşdırıcı lotereyanın keçirilmə forması:** Stimullaşdırıcı, tirajlı

**1.11 Stimullaşdırıcı lotereyanın keçirilmə müddəti:** 02 sentyabr – 31 oktyabr 2024-cü il

**1.12 Stimullaşdırıcı lotereyanın tirajlarının keçirilmə tarixləri:** 1ci tiraj 04.10.2024, ikinci tiraj 07.11.2024

**1.13 Stimullaşdırıcı lotereyanın keçirilmə yeri:** Azərbaycan Respublikasının ərazisi

**1.14 Stimullaşdırıcı lotereyanın keçirilmə məqsədi:** Kapital Bank-da depozit yerləşdirilməsi üçün müştərilərin stimullaşdırılması

**Əlaqəli şəxs:** Abbas Rəcəbov, tel.: +994 55 5699965

**2. Stimullaşdırıcı lotereyada iştirak qaydası:**
02 sentyabr – 31 oktyabr 2024-cü il tarixləri aralığında (02 sentyabr 2024-cü il tarixindən əvvəl yerləşdirən depozitlər lotereyada iştirak etmir) Kapital Bankın müraciət kanallarından (bankın filal və mobil tətbiqi üzərindən) 6,12,18 aylıq minimum 500 AZN məbləğində, depozit faizlərini müqavilə müddətinin sonunda götürmək şərti ilə Kapital depozit (filalllara müraciət edərək yerləşdirilən depozitlər) və ya Rəqəmsal depozit (mobil tətbiq üzərindən yerləşdirilən depozitlər) yerləşdirən (məhsul kodları KADP, DGDP olan, müqavilə nömrələrinə misal 299/DGDP/000123456 və 299/KADP/000123456), 18 yaşına çatmış, Azərbaycan vətandaşı, lotereya biletinin (ona bərabər tutulan digər məlumat daşıyıcısının) sahibi olan müştərilər “Depozit lotereyası” adlı stimullaşdırıcı lotereyada iştirak edə bilərlər. Depozitlərini 24 və 36 ay müddətinə yerləşdirən, faizləri hər ay götürmək şərti ilə yerləşdirən, Müddətsiz depozit növündə depozit yerləşdirən müştərilər və depozitləri avtomatik uzadılan müştərilər lotereyada iştirak etməyəcəklər. Lotereya biletini əvəz edən məlumat daşıyıcısı qismində müqavilə nömrəsi (misal: 299/DGDP/000123456) iştirak edəcək və bu barədə depozit rəsmiləşdirərkən müştəriyə bank tərəfindən məlumat veriləcək.

**3. Şansların hesablanması:**
Minimal 500 AZN-dən 1000 AZN-ə əmanət qalığı olan müqavilələr üzrə müştəri 10 şans, sonrakı hər 1000 AZN üçün əlavə 10 şans qazandırır. Nümunə olaraq: 500 – 1000 AZN aralığında depozit yerləşdirən müştərilərə 10 şans, 1001 – 2000 AZN aralığında depozit yerləşdirən müştərilər 20 şans, 2001 – 3000 AZN aralığında depozit yerləşdirən müştərilər 30

şans qazandıracaq. Rəqəmsal depozitlərə görə verilən şanslar 2 qat hesablanacaq. Nümunə olaraq: 1001 – 2000 AZN aralığında Rəqəmsal depozit yerləşdirən müştərilər 40 şans qazandıracaq. Qeyd olunan məbləğlərdən fərqli məbləğlər də bu qaydaya uyğun olaraq şans qazandıracaq. Lotereya dövründə yerləşdirilən depozitə görə qazanılan şanslar, tiraj keçirilən günə kimi depozit məbləğini azaldıldıqda qazanılmış şanslar da eyni qaydada azalır. Artırılan depozitlər əlavə şans qazandırmır, şanslar ilk yerləşdirilən depozit məbləğinə görə hesablanacaq. (İştirakçı siyahıları tiraj keçirilməmişdən bir gün əvvəl hazırlanır)

**4. Uduş məbləğinin hesablanması:**

Tiraj qaliblərinə hədiyyə olunacaq uduş məbləği ilkin yerləşdirilən depozit məbləğinin faizi həcmi hissəsində əlavə məbləğ cari hesaba köçürüləcək.

**Misal 1:** Müştəri 6 ay müddətinə illik 10% ilə faizləri müddətin sonunda götürmək şərti ilə 10 000 AZN Kapital depoziti yerləşdirib. İlk və ya ikinci tirajda 2000 AZN-dək hədiyyə qalibi olarsa və qalib olduqdan sonra uduşların ödənəcəyi günə kimi müştəri depozitini azaltmaz və ya tam olaraq bağlamazsa, müştərinin hesabına yerləşdirdiyi depozitə görə ödənəcək faizlərdən əlavə 500 AZN vəsait oturacaq.

**Misal 2:** Müştəri 12 ay müddətinə illik 9% ilə faizləri müddətin sonunda götürmək şərti ilə 50 000 AZN Kapital depozit yerləşdirib. İlk və ya ikinci tirajda 2000 AZN-dək hədiyyə qalibi olarsa və qalib olduqdan sonra uduşların ödənəcəyi günə kimi müştəri depozitini azaltmaz və ya tam olaraq bağlamazsa, müştərinin hesabına yerləşdirdiyi depozitə görə ödənəcək faizlərdən əlavə 2000 AZN vəsait oturacaq. (Maksimal hədd gözlənilməklə.)

**Misal 3:** Müştəri 18 ay müddətinə illik 8% ilə faizləri müddətin sonunda götürmək şərti ilə 20 000 AZN Rəqəmsal depozit yerləşdirib. İkinci tirajda 50 000 AZN hədiyyənin qalibi olarsa və qalib olduqdan sonra uduşların ödənəcəyi günə kimi müştəri depozitini azaltmaz və ya tam olaraq bağlamazsa, müştərinin hesabına yerləşdirdiyi depozitə görə ödənəcək faizlərdən əlavə 50 000 AZN vəsait oturacaq.

İlkin depozit məbləği tiraj gününə kimi artırıldıqda hesablanacaq uduş məbləği ilkin yerləşdirilmiş məbləğə görə hesablanır. Əgər tiraj keçirilən günə depozitin ilkin məbləği azaldılarsa bu halda hesablanacaq uduş məbləği qalıq məbləğə görə hesablanacaq. Minimum 500 AZN qalığı qalan depozitlər qalib olmaq şansı əldə edir.

**Misal 4:** Müştəri 12 ay müddətinə illik 9% ilə faizləri müddətin sonunda götürmək şərti ilə 10 000 AZN Rəqəmsal depozit yerləşdirib. Tiraj keçirilən gün depozitin qalıq məbləği 5000 AZN olarsa və ilk və ya ikinci tirajda 2000 AZN-dək hədiyyə qalibi olarsa qalib olduqdan sonra uduşların ödənəcəyi günə kimi müştəri depozitini azaltmaz və ya tam olaraq bağlamazsa, müştərinin hesabına yerləşdirdiyi depozitə görə ödənəcək faizlərdən əlavə 450 AZN vəsait oturacaq.

Depozitin rəsmiləşdirildiyi gündən tirajın keçirildiyi ana qədər müştəri depoziti artıra və ya azalda bilər. Əgər müştəri tirajın keçirilmə anına qədər depozitini artırıbsa artırılmış hissə şans qazandırmır və artırılmış hissəyə uyğun hesablanmış faiz gəliri uduş məbləğinə təsir etmir. Müştəri tiraj anına qədər depozitini azaldarsa bu zaman uduş məbləğinin və şansların hesablanması zamanı tirajın keçirildiyi ana olan depozitin qalıq məbləği əsas götürülür və uduş məbləği həmin məbləğə uyğun hesablanacaq faiz gəliri həcmində müəyyənləşir. Qalib elan olunan müştəri qalib olduqdan sonra uduşların ödənəcəyi günə kimi depoziti vaxtından əvvəl bağlayarsa və ya azaldarsa nəzərdə tutulan uduş məbləği müştərinin cari hesabına ödənilməyəcək və bankın sərancamında qalacaq.

**5. Tiraj və hədiyyələr:**
Stimullaşdırıcı lotereyanın yekun nəticələrinə əsasən qaliblər üçün iki tiraj keçiriləcək. Ümumilikdə lotereya dövründə 101 qalib hədiyyə qazanacaq. İştirakçıların sayı bu göstəricidən az olarsa uduş fondunun qalıq məbləği bankın sərəncamında qalacaq.
**5.1** 100 qalib 2000 AZN (qanunvericiliyə əsasən tutulmalarla birlikdə 2 167 AZN) - dən çox olmamaq şərti ilə, "**Uduş məbləğinin hesablanması**" bəndinin tələblərinə uyğun bank tərəfindən hədiyyə qazanacaq. İlkin yerləşdirilən depozit məbləğinə görə hesablanmış faiz gəliri 2000 AZN-ə qədər olduqda müqavilə üzrə hesablanmış faizi qədər əlavə hədiyyə. 2000 AZN-dən cox olduqda isə 2000 AZN qədər məbləğ hədiyyə edilir. 2000 AZN-dən artıq vesait verilmir.
**5.2** 1 qalib depozit faiz gəlirinin üzərinə əlavə 50 000 AZN (qanunvericiliyə əsasən tutulmalarla birlikdə 55 500 AZN) ödənməsini bank tərəfindən hədiyyə qazanacaq.

**6. Lotereya şərtləri:**
Tirajlarda qalib kimi seçilən müştərilərin hədiyyələri bank tərəfindən ödənildiyi zaman depozit müqavilələri tam bağlanmış olarsa və ya qalib seçilmiş məbləğ azaldılarsa qalib elan olsalar belə, tiraj hədiyyələri müştərilərə təqdim olunmayacaq. Lotereyada Kapital Bank əməkdaşları və aidiyyəti şəxslər iştirak etmir.

**7. Əlavə şərtlər:**
İlk tirajda qalib gələn müştərilər ikinci tirajda iştirak hüququ qazanmır. İlk tirajda qalib olmayan müştərilər isə ikinci tirajda iştirak hüquq qazanır. Bir müştəri yalnız bir dəfə qalib ola bilər.

**8. Uduş fondu:**
Lotereya ərzində keçiriləcək tirajda 100 qalibin hər biri maksimal 2000 AZN olmaq şərti ilə, **"Uduş məbləğinin hesablanması"** bəndinin tələblərinə uyğun hədiyyə, 1 qalib isə 50 000 AZN hədiyyə qazanacaq. Lotereya müddətində ümumi uduş fondu cəmi maksimal tutulmalar xaric 250 000 AZN təşkil edəcək.

**9. Stimullaşdırıcı lotereya tirajlarının keçirilmə tarixi və qaliblərin sayı:**
**9.1** 02 sentyabr – 30 sentyabr 2024-cü il tarixləri aralığında depozit yerləşdirən şəxlər arasında 04 oktyabr 2024 tarixində keçiriləcək ilk tirajda 40 qalibin hər biri maksimal 2000 AZN olmaq şərti ilə, "**Uduş məbləğinin hesablanması**" bəndinin tələblərinə uyğun hədiyyə qazanacaq.
**9.2** 01 oktyabr – 31 oktyabr 2024-cü il tarixləri araləğında depozit yerləşdirən şəxlər arasında 07 noyabr 2024 tarixində keçiriləcək ikinci tirajda 60 qalibin hər biri maksimal 2000 AZN olmaq şərti ilə, "**Uduş məbləğinin hesablanması**" bəndinin tələblərinə uyğun hədiyyə, 1 qalib isə 50 000 AZN hədiyyə qazanacaq.

**10. Tirajları keçirilmə tarixləri və şərtləri:**
Qaliblər 04 oktyabr və 07 noyabr 2024-cü il tarixində, Bankın ofisində tiraj komissiyasının müəyyən olunmuş üzvlərinin iştirakı ilə, kompüterdə xüsusi proqramın təsadüfi seçimi vasitəsilə müəyyən olunacaq. Bankın sosial şəbəkə səhifələrində canlı yayımlanacaq. Lotereya müddəti ərzində müştərilərin siyahısı proqrama daxil ediləcək, "Start" düyməsi basılacaq və qaliblər müəyyən olunacaq. Qaliblər "Excel" faylına inteqrasiya olunacaq. Siyahıda Qaliblərin adları və soyadları, mobil nömrələri, müştəri (CİF) kodları, depozit müqavilə nömrələri qeyd olunacaq.

**11. Uduşların verilmə qaydası və müddəti:**
**11.1** Tirajlar oynanıldıqdan sonra qaliblərə SMS və ya "Birbank" mobil tətbiqinin Push bildirişləri vasitəsilə məlumat göndəriləcək.
**SMS nümunə**: Tebrikler, Rəcəbov Abbas! Siz 07.11.2024 tarixinde kecirilen "Depozit lotereyası" kampaniyasının tirajinda 299/DGDP/000123456 nomreli muqavileniz uzre 50 000 AZN məbləği Kapital Bank terefinden hədiyyə qazandiniz.
**11.2** Stimullaşdırıcı lotereyanın şərtləri və müəyyən olunan qaliblərin maskalanmış məlumatları (ad, soyad, mobil nömrə, müştəri (CİF) kodu, depozit müqavilə nömrəsi - nümunə A**** R******* V****: 055**9***5: 250****: 299/DGDP/000123456) bankın korporativ internet saytında (www.kapitalbank.az) sosial şəbəkələrindəki səhifələrində və KİV–də 5 iş günü ərzində dərc olunacaq. Qalib müştərilərlə Bankın Məlumat Mərkəzi daha sonra əlaqə saxlayıb uduşun alınma qaydası, müddəti və digər detallar barədə ətraflı məlumatı təqdim edəcək. Uduşlar lotereya təşkilatçısı tərəfindən tiraj keçirilən gündən sonrakı 30 iş günü ərzində qalib şəxsin cari hesabına ödəniləcək.
**11.3** Qalib elan olunmuş müştərilərin cari hesabına uduş məbləği bank tərəfindən heç bir əlavə sənəd tələb edilmədən köçürüləcək.